
حقوق بشر آمریکایی
AMERICAN
HUMAN RIGHTS
AMERIKANIN İNSAN HÜQUQLARI


حقوق بشر امریکایی




# 2021-ci il ərzində ABŞ-ın anti-humanitar siyasət və fəaliyyətlərinə ümumi baxış

ABŞ hökumətinin insan haqları sahəsində fəaliyyətini həm daxili, həm də xarici ölçülərdə araşdırmaq bu ölkənin özünün dünyadakı ən mühüm insan haqları pozucularından biri olduğunu təsdiqləyir və buna görə də ABŞ başqa ölkələrdə insan haqlarının vəziyyətini şərh etmək səlahiyyətinə malik deyil. 2021-ci ildə aparılan araşdırmalar təsdiq edir ki, ABŞ-da əvvəlki illərdə olduğu kimi, müxtəlif səviyyələrdə fundamental və əsas insan hüquqları pozulmaqda davam edir.

ABŞ-ın hakim dairələrində insan hüquqlarının pozulması uzun müddətdir ki, institusional və ümumi praktikaya çevirilib. Eyni zamanda nəzərə almaq lazımdır ki,

son on ildə və xüsusən də Korona epidemiyası kimi qlobal böhrandan sonra ABŞ-ın qeyri-insani siyasətlər törətməsi prosesi daha da güclənib.

Dünya əhalisinin cəmi 5 faizini təşkil edən ABŞ dünya həbsxana əhalisinin 25 faizini saxlayır və dünyanın ən böyük həbsxana gözətçisidir. Müxtəlif mənbələrin hesabatları göstərir ki, ABŞ-dakı təcridxana və həbsxanalardakı şərait bir çox cəhətdən təhlükəli və qeyri-insanidir.



2021-ci ilə qədər bəzilərində qeyri-ağdərililərin əhalinin ən azı 20 faizini təşkil etdiyi 28 ştatda heç bir qaradərili hakim olmamışdır. Bütün ştatların ali məhkəmələrində hakimlərin yalnız 17 faizi qaradərili, latın, asiyalı və ya yerli amerikalıdır. Ümumilikdə, qeyri-ağdərili insanlar ABŞ əhalisinin təxminən 40 faizini təşkil edir.

2021-ci ildə ABŞ polisi dinc etiraz aksiyaların yatırılmasında gözyaşardıcı qaz, bibər qazı və digər təzyiqli silahlar kimi kimyəvi vasitələrdən istifadə edib. Bir çox hallarda polis hətta media nümayəndələrini də kimyəvi tərkibli maddələrlə hədəfə alıb və ya həbs edib. Bir sıra ştatlarda jurnalistlər polis reydləri nəticəsində ağır yaralanıb və ya lazımi tibbi yardımdan məhrum ediliblər.



Ölkə daxilində ABŞ-da insanlar sistematik olaraq irqi və ya etnik səbəblərə görə bərabər sosial hüquqlardan istifadə edə bilmirlər. Lakin statistika göstərir ki, insan hüquqlarının pozulması irqi perspektivdən kənarda və hər şeydən əvvəl hüquq-mühafizə orqanlarının səlahiyyətlərindən sui-istifadə kontekstində baş verir. ABŞ-ın cinayət ədliyyə strukturu irqi bərabərsizlik və hədsiz cəzaların tətbiqi kimi

ədalətsizliklərdən əziyyət çəkir. Xüsusi siyasət strukturu cinayətdə ittiham olunan və ya cinayət qurbanı olan gənclərə, irqi azlıqlara və ya aşağı gəlirli əhaliyə ciddi təsir göstərir. Əslində, irqi ayrı-seçkilik ABŞ-ın cinayət ədliyyə sistemində institutsionallaşdırılıb.

Sosial xəstəliklərin yayılması Amerikada hökm sürən etnik, irqi, cinsi və sistemli ayrı-seçkilik ABŞ-ın insan haqları iddiası ilə tamamilə ziddiyyət təşkil edən bir məsələdir. Aşağı maaşlı xidmət işlərində çalışan qeyri-ağdərili insanlar - xüsusən də qadınlar və immiqrantlar daha çox risk altındadır. Sistemli ayrı-seçkiliyə misal olaraq, müxtəlif ABŞ hökumətlərinin ölkədə üstün etnik, irqi və gender strukturlarının lehinə olan siyasətləridir. Məsələn, Korona epidemiyasından bəri Asiya əsilli Amerikalılar daha çox ayrı-seçkiliyə məruz qalıblar.

ABŞ-da insan haqlarının pozulması yalnızca daxili zəmində baş vermir. Bu ölkəni ictimai və siyasi cəhətdən idarə edən müxtəlif hökumətlər öz fəaliyyətləri ilə dünyada bir çox insanın hüquqlarını əlindən alıblar. ABŞ-ın birtərəfli hərəkətləri beynəlxalq səviyyədə müxtəlif ölçülərdə insan hüquqlarının pozulmasına səbəb olub. ABŞ-ın müxtəlif ölçülərdə apardığı özbaşına müharibələrinin insanlara ziyan vurması, qəsbkar sionist rejimin cinayətlərinin dəstəklənməsi, eləcə də avtoritar hökumətlərin insan haqlarının boğulması istiqamətindəki fəaliyyətlərinə dəstək Amerikanın insan haqlarına qarşı olan hərəkətlərdən yalnız bir neçəsidir ki, 2021-ci ildə də davam etdirilmişdir.

İşğalçı sionist rejimin 2021-ci ildə Qəzzə xalqı ilə 12 günlük müharibəsi ABŞ-ın bu işğalçı rejimə dəstək olaraq insan haqlarına zidd yanaşmasını bir daha nümayiş etdirdi. Co Bayden açıq şəkildə iddia edir ki, "özünümüdafiə sionist rejimin qanuni hüququdur".O, bu rejimin qeyri-insani əməllərini kor-koranə dəstəkləməkdə davam

edirdi. Bayden hətta münaqişə zamanı işğalçı müttəfiqinə dəstək olaraq sionist ordusuna 735 milyon dollar dəyərində Amerika silahı satmağı təklif edib. Bununla da o, sionist rejimin insan haqlarına qarşı siyasətləri ilə bağlı münasibətinin ABŞ-ın əvvəlki administrasiyalarından çox da fərqlənmədiyini əməli şəkildə göstərdi.




Birləşmiş Millətlər Təşkilatının 2022-ci ilin əvvəlinə qədər açıqladığı rəqəmlərə görə, Yəməndə ölkə əhalisinin 20 milyona yaxını, yəni vətəndaşlarının yarıdan çoxu şiddətli aclıq və qıtlıqdan əziyyət çəkir. Daha 7,4 milyon nəfər isə şiddətli qıtlığın astanasındadır. Sosial xidmətlər sıradan çıxıb. Səhiyyə ocaqlarının yalnız 51%-i tam fəaliyyət göstərir. Dərman və avadanlıqlar isə məhduddur. Yəmən xalqının təxminən 80%-i ərzaq ehtiyaclarını ödəyə bilmir və yoxsulluq içərisində yaşayır. Bununla belə, 2021-ci il ərzində Co Bayden də Tramp kimi, Yəmən xalqına qarşı kor-koranə Səudiyyə Ərəbistanı və BƏƏ-ni dəstəklədi. Bununla yanaşı, Ağ Evə gəlişinin ildönümündə o, Ənsarullahın yenidən ABŞ-ın qara siyahısına salındığını elan etdi.

BMT-nin rəqəmlərinə görə, hazırda 82,4 milyon insan öz ölkələrində müharibə, təzyiq, zorakılıq, insan hüquqlarının pozulması və ya iğtişaşlar səbəbindən öz evindən didərgin düşüb. Statistika göstərir ki, 2021-ci ilə qədər, yəni ABŞ qoşunları Əfqanıstandan tamamilə çıxarılana qədər, rəsmi beynəlxalq hesablamalara əsasən, təxminən 36 milyon insan ABŞ-ın hərəkətləri və cinayətləri səbəbindən, qeyri-rəsmi hesablamalara görə isə, bu rəqəmdən iki dəfə çox insan köçkünə çevriləcək, yaşayış yerini tərk ediblər.

Korona epidemiyası ABŞ siyasətindəki sistematik ayrı-seçkiliyi üzə çıxardı. Son iki ildə, Korona epidemiyasının ən qızğın çağında Birləşmiş Ştatlar səhiyyəyə sanksiya təzyiqini artıraraq, qeyri-insani sanksiya vasitələrindən müxtəlif üsullarla istifadə edərək, onları dünyada bir çox insanın yaşamaq hüququndan məhrum etdi. İran İslam Respublikası da ABŞ-ın qəddar və qeyri-insani sanksiyalarının qurbanıdır. ABŞ-ın İrana qarşı hərəkətləri, dərman sanksiyalarından tutmuş bank əməliyyatlarının məhdudlaşdırılması və bloklanması kimi sanksiyalara qədər, birbaşa yaşamaq və təhlükəsizlik hüququ, həmçinin, sosial inkişaf kimi əsas insan haqlarını hədəf alır. ABŞ rəsmiləri cəzalandırıcı xarici siyasət yürütmək üçün bütün dünyada bank sistemindən istifadə ediblər.

Birləşmiş Ştatlar istixana qazlarının emissiyasına görə dünyada ikinci yerdədir. İstixana qazı emissiyalarının ən yüksək konsentrasiyası ölkənin ordusunda (təxminən 80%) və üç növdə müəyyən edilir: strukturlar (bazalar), tullantılar və yanacaq.

ABŞ hərbi bazaları bütün dünyada çirkləndirici yerlər kimi tanınır. Təkcə 1960-1970-ci illərdə ABŞ Hərbi Dəniz Qüvvələri Pearl Harbor Dəniz Bazasına milyonlarla qallon radioaktiv tullantı atıb. Hazırda Pentaqonun istixana qazlarının 40%-ni istehsal edən 80 ölkədə 560 000-dən çox binası, 6 000-ə yaxın yerli bazası

və 1 000 xarici bazası (dəqiq sayında fikir ayrılığı var) var. Bütün bu bazalar öz missiyalarını yerinə yetirmək üçün böyük miqdarda fosil yanacaq tələb edir.

Müxtəlif ölkələrə qarşı sanksiyalar ABŞ-ın insan haqları əleyhinə siyasətlərinin ən mühüm nümunələrindən biri olmaqda davam edir. Hazırda, ABŞ İran İslam Respublikası, Rusiya, Şimali Koreya, Suriya, Sudan, Kuba və Venesuelaya qarşı geniş sanksiyalar, o cümlədən Əfqanıstan, Belarus, Burundi, Mərkəzi Afrika Respublikası, Çin, Fil Dişi Sahili, Komor adaları, Konqo Demokratik Respublikası, İraq, Livan, Qırğızıstan, Laos, Liberiya, Liviya, Mavritaniya, Myanma, Nikaraqua, Fələstin, Papua Yeni Qvineya, Somali, Cənubi Sudan, Şri-Lanka, Türkiyə, Türkmənistan, Yəmən və Zimbabvedə şəxslərə və qurumlara qarşı sanksiyalar tətbiq edir. Ümumilikdə ABŞ Maliyyə Nazirliyi, Ticarət və Dövlət Departamenti ən azı 30 ölkə və ya əraziyə qarşı sanksiyaları sadalayıb. Son iki onillikdə ABŞ-ın digər ölkələrin hökumətlərinə, şirkətlərinə və rəsmilərinə qarşı sanksiyalarının sayı on dəfə artıb.

Bütövlükdə, Birləşmiş Ştatların 2021-ci ildəki fəaliyyəti təsdiq edir ki, ABŞ əvvəlki illərdə olduğu kimi, müxtəlif səviyyələrdə əsas insan hüquqlarının geniş şəkildə pozulması ilə məşğul olmaqda davam edir. O dərəcədə ki, çox vaxt ABŞ-ın insan haqları pozuntularını dəstəkləmək və əsaslandırmaq istəyən çoxsaylı beynəlxalq hesabatlar ABŞ hökuməti polisinin özbaşına insanları öldürməsi, məhkəmə sisteminin qanunsuz fəaliyyətləri kimi bəzi hərəkətlərini görməzlikdən gələ bilmiş, Fələstində, Yəməndə və Əfqanıstanda heç bir humanitar fəlakət olmadığını qeyd etmişdir.

## İranda “Amerika İnsan Haqlarının Təftişi və İfşası Həftəsi”




**3 iyul 1988-ci ildə Amerikanın hərbi gəmisinin Fars Körfəzi üzərində uçan sərnişin təyyarəsini raket zərbəsi ilə hədəfə alması nəticəsində 290 nəfər insanın şəhadətə yetirilməsinin ildönümüdür.**

**Bu səbəbdən, İranda hər il** 27 iyun-3 iyul **tarixi** “Amerika İnsan Haqlarının Təftişi və İfşası Həftəsi” olaraq adlandırlıb.

“Amerika İnsan Haqlarının Təftişi və İfşası Həftəsi” nin (27 iyun-3 iyul) yetişməsi münasibətilə fədakar şəhid ailələri bəyanat yayımladılar. Bəyanatın mətni aşağıdakı kimidir:

“27 iyun 1981-ci ildə Həzrət Ayətullahul-üzma İmam Xameneiyə (ə) uğursuz sui-qəsd, 28 iyun 1981-ci ildə Ayətullah Doktor Beheşti və onun 72 yoldaşının şəhadətə

yetirilməsi, Sərdəştə kimyəvi bomba atılması, 29 iyun 1987-ci ildə İraq BƏƏS rejiminin borbardmançı təyyarələri tərəfindən 110 nəfərin şəhadətə yetirilməsi, 29 iyun 1981-ci ildə "Evin" həbsxanasının rəisi Məhəmməd Kuçuyinin şəhadətə yetirilməsi, 2 iyul 1982-ci ildə, Yəzdin imamcüməsi və İmam Xomeyninin (r.ə) nümayəndəsi olan Ayətullah Səduqinin şəhadətə yetirilməsi, 1988-ci il iyulun 3-də Amerikanın "Vinsennes" gəmisinin İran sərnişin təyyarəsinə raket atması və 290 nəfərin şəhid olması 27 iyun-3 iyul tarixləri İslam İnqilabının Ali rəhbərinin təklifi ilə "Amerika İnsan Haqlarının Təftişi və İfşası Həftəsi" kimi qeyd olunması üçün məktub göndərilməsinə səbəb oldu. Hər ilin bu həftəsi insan haqlarının müdafiəsi adı altında gizlənən qaniçən Amerikanın cinayətlərini ifşa etmək, insanlara, xüsusən də gənc nəslə qlobal təkəbbürlü terror və şeytani əməllər və onların dəstəklədiyi dəstələri xatırlatmaq imkanı verir.



İran İslam İnqilabının Ali Məqamlı Rəhbəri çıxışlarında dəfələrlə Amerikanın insan haqları məsələsinə toxunaraq buyurub:

“Amerika rejimi dünyanın zəif dövlətlərinə qarşı təkəbbürlü rəftarında insan haqlarının pozulmasının ən çirkin mənzərəsini yaradaraq, rahat nəfəs alır”. Bu gün dünya terror aktları, insan haqlarına zidd və dünyanın günahsız insanlarına, xüsusən də məzlumlara qarşı qlobal təkəbbürün kin-küdurəti ilə doludur. Bu fəaliyyətləri din alimləri və ziyalıların fiziki və şəxsi qətlində də görmək olar.

Amerika faktorunun ölkəmizdəki cinayətlərinin bariz nümunəsi İraqda Bəəs rejiminin İran xalqına qarşı tətbiq etdiyi müharibəyə və bir milyona yaxın insanın şəhid olmasına və ya yaralanmasına dəstək verməyidir. Qlobal dünya imperialistlərinin 8 illik müharibə ilə yanaşı İslam İnqilabının başlanğıcından keçən 40 ildən artıq bir müddətdə 17.000 nəfərdən artıq kişi, qadın və uşağa qarşı sui-qəsdə etməsidir. Son aylarda şəhərimizin küçələrində və ictimaiyyətin gözü qarşısında alim “Möhsün Fəxrizadə” və cənab “Həssan Sayad Xodayi” nin şəhadətə yetirildiyinin şahidi olduq.

Fədakar şəhid ailələri təkəbbürlü qlobal imperialistlərin cinayətlərini qınayaraq, ABŞ-da insan haqlarının pozulması ilə bağlı maarifləndirmə və təbliğat işində səylərini əsirgəməyəcəklərini bəyan edirlər. Onlar son damla qanlarına qədər İran İslam Respublikasının İslam İnqilabını və müqəddəs sistemini qlobal təkəbbürün şeytani və şər fitnələrindən qorumağa hazır olduqlarını bəyan edirlər.